# XARİCİ VALYUTA İLƏ BAĞLI RİSKİN QARŞISININ ALINMASI MƏQSƏDİ İLƏ İSTİFADƏ EDİLƏN ALƏTLƏRİN (HECİNQ ALƏTLƏRİ) SİYAHISI

**Forvard** – gələcəkdə razılaşdırılmış qiymətə maliyyə aktivlərinin alınması və ya satılması ilə bağlı öhdəlik ehtiva edən, həmçinin tərəflər arasında birjadan kənar bağlanan müqavilə növü hesab olunur. Bank, bəzi maliyyə institutları ilə valyuta riskini minimallaşdırmaq məqsədilə NDF (Non-Deliverable Forward) müqavilələri üzrə əməliyyatlar həyata keçirir.

**Svop** – razılıq əsasında A (alıcı) əvvəlcədən müəyyənləşdirilmiş gündə B (satıcı) tərəfdən hər hansısa maliyyə alətini tərəflər arasında razılaşdırılmış qiymətə alır və əvvəlcədən müəyyənləşdirilmiş digər vaxtda və qiymət səviyyəsində qarşı tərəfə geri satmağı həyata keçirir. Hər iki tərəf gələcəkdə yarana biləcək potensial riskləri və bundan irəli gələn mümkün qiymət dəyişikliklərinə məruz qalmadan müqavilə əsasında razılaşdırılmış qiymətlərlə əməliyyatları həyata keçirməkdədirlər.